# Böyük Zəfərin müjdəçisi

**_Azərbaycan Ordusunun Tovuzda sərgilədiyi şücaət, İkinci Qarabağ savaşında qazandığı uğurun, zəfərin xəbərçisi idi. Ermənistan cəbhədən uzaqda yerləşən və enerji xətlərinin keçdiyi strateji mövqeyə malik Tovuz şəhərinə hücum etdi. Burada Ermənistana verilən dərs Azərbaycanın Qarabağ zəfərinə bir işarə oldu. Pandemiya dönəmində Ermənistan bölgədəki xaosu artırmaq məqsədi ilə Tovuza hücum etdi. Bunun digər səbəbi isə Ermənistandakı böhranlı vəziyyət idi._**

Bunu "Xalq qəzeti"nə açıqlamasında Türkiyənin Azərbaycandakı sabiq səfiri, "İMZA" Sosial İnkişafa Dəstək İctimai Birliyinin Türkiyə nümayəndəsi Hulusi Kılıç dedi.

Diplomat bildirdi ki, Tovuz döyüşlərini Qarabağ zəfərinin başlanğıcı, müjdəçisi kimi görmək olar: "Otuz ilə yaxın işğal altında olan torpaqlar 44 gündə azad edildi. Azərbaycan Ordusu bu savaşda öz qüdrətini, əzəmətini nümayiş etdirdi. Bu da 44 günlük Qarabağ müharibəsindəki Qələbəyə zəmin yaratdı. Damarlarda qanı, qəlbi riqqətə gələn xalq öz liderinin ətrafında bir yumruq kimi birləşərək, döyüşə hazır olduğunu dünyaya göstərdi. Bu davranış Azərbaycan Ordusunun və xalqının mərdliyi, şücaəti və qorxmazlığından irəli gəlirdi. Təbii ki, qardaş ölkəyə Türkiyənin siyasi və mənəvi dəstəyi də qeyd edilməlidir. Həmin günlər beynəlxalq arena Azərbaycana olunan səbəbsiz hücumun şahidi oldu. Bütün dünya Azərbaycanın gücünü gördü, qüdrətinə bələd oldu. Ermənistan bilməlidir ki, "dəmir yumruq" hələ də yerindədir. Bütün



döyüşlərdə onların başı ilanın başı kimi əzilib. Ermənistan məğlubiyyətini qəbul etməli, göstərişlərə əməl etməlidir. Mən də öz növbəmdə başda Azərbaycanın Milli Qəhrəmanı Polad Həşimov olmaqla, bütün şəhidlərimizi hörmətlə anır, Tanrıdan onlara sonsuz rəhmət diləyirəm".

**_Şahxanım ƏLİZADƏ,_**
**_"Xalq qəzeti"_**

Xalq qəzeti .- 2022.- 17 iyul.- S.3.